# “The Business Year” şirkəti İlham Əliyevi 2015-ci ildə “Dünyada ilin adamı” seçib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 25-də “The Business Year” jurnalının baş redaktoru Leland Raysı və jurnalın direktoru xanım Betül Çakaloğlunu qəbul edib.**

“The Business Year” jurnalının baş redaktoru Leland Rays Azərbaycan Prezidenti İlham Əliyevin İstanbulda keçirilən Dünya Humanitar Sammitində iştirakının və çıxışının önəmini vurğuladı. O, Azərbaycanın beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsi və dünyada gedən iqtisadi proseslərdəki rolunu qeyd etdi.

“The Business Year” jurnalının direktoru xanım Betül Çakaloğlu jurnalın gördüyü işlər barədə dövlətimizin başçısına məlumat verdi. Altı ilə yaxın bir müddətdə ölkəmiz ilə əməkdaşlıq etdiklərini vurğulayan xanım Betül Çakaloğlu jurnalın dünyanın müxtəlif qitələri və ölkələrində yaxşı əlaqələr qurduğunu dedi.

Dövlətimizin başçısı “The Business Year” jurnalının “Dünyada ilin adamı” mükafatına layiq görüldüyünə görə minnətdarlığını ifadə etdi.

* * *

Mayın 25-də Bakıda Prezident Administrasiyasının və “The Business Year” jurnalının təşkilatçılığı ilə nəşrin “Azerbaijan 2016” xüsusi buraxılışının (“The Business Year-Azerbaijan 2016”) təqdimat mərasimi keçirilib.

Təqdimat mərasimində dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, KİV-in və ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Tədbirdə çıxış edən nəşrin direktoru xanım Betül Çakaloğlu “The Business Year-Azerbaijan 2016” xüsusi buraxılışı haqqında ətraflı məlumat verib.

Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov“The Business Year” nəşrinin artıq altıncı ildir Azərbaycanın müasir inkişafını bütün sahələrdə dərindən təhlil edərək onun salnaməsini yaratması, dünyanın biznes və işgüzar dairələrinə təqdim etməsi baxımından fəaliyyətini yüksək qiymətləndirib. Diqqətə çatdırıb ki, “The Business Year” nəşrinin yaradıcı heyəti yüksək peşəkarlıqla Azərbaycanın müasir inkişaf tarixinin bütün sahələrini əhatə edən zəngin arxiv yaradıb.



Əli Həsənov vurğulayıb ki, xalqımızın ulu öndəri Heydər Əliyev müasir müstəqil Azərbaycan dövlətinin təməlini qoyanda, onun müasir inkişaf konsepsiyasını müəyyən edəndə ölkəmizin sürətlə inkişaf edəcəyini və mühüm uğurlar qazanacağını bilirdi.

Nəşrin 2013-cü ildə Azərbaycan Prezidenti İlham Əliyevi “İlin adamı” seçdiyini xatırladan Prezident Administrasiyasının rəsmisi həmin vaxt dövlətimizin başçısının rəhbərliyi ilə ölkəmizin qazandığı mühüm uğurları diqqətə çatdırıb.

Əli Həsənov deyib ki, Azərbaycanın nəşrin builki təqdimatında əksini tapan uğurları təkcə ölkəmizin, xalqımızın rifahına deyil, eyni zamanda, beynəlxalq aləmdə əməkdaşlığa və tərəfdaşlığa xidmət edir. Azərbaycan Türkiyə ilə birlikdə Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayacaq TANAP və TAP layihələrini uğurla həyata keçirir. Azərbaycanın təşəbbüsü əsasında dünyanın böyük dövlətləri və nəhəng şirkətləri ilə “Şahdəniz-2” layihəsi üzrə yekun investisiya sazişi imzalanıb. Ötən il və bu il “Cənub Qaz Dəhlizi” Məşvərət Şurası çərçivəsində nazirlərin toplantıları keçirilib. Bütün bu layihələr üzrə işlər sürətlə davam etdirilir. Bundan başqa, Azərbaycan ötən il tarixdə ilk dəfə keçirilən “Bakı-2015” birinci Avropa Oyunlarına yüksək səviyyədə ev sahibliyi edərək bu mötəbər yarışların standartlarını müəyyənləşdirib.

Prezident Administrasiyasının rəsmisi nəşrdə Azərbaycanın Şimal ilə Cənub və Şərq ilə Qərb arasında mühüm nəqliyyat dəhlizinə çevrilməsinin yüksək dəqiqliklə əksini tapdığını diqqətə çatdırıb. Azərbaycanın bu il iki böyük foruma - IV Qlobal Bakı Forumuna və BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumuna yüksək səviyyədə ev sahibliyini etdiyini deyən Əli Həsənov bu nailiyyətlərin də nəşrin diqqət mərkəzində saxlanıldığını vurğulayıb.

Əli Həsənov “The Business Year” nəşrinin Azərbaycanın əldə etdiyi bütün bu uğurları dərindən təhlil edərək həmin nailiyyətlərin əsasında Prezident İlham Əliyevi “Dünyada ilin adamı” seçdiyini bildirib.

Bu təşəbbüsə görə nəşrin redaksiya heyətinə dərin minnətdarlığını çatdıran Əli Həsənov belə layihələrin Azərbaycanın beynəlxalq imicinin formalaşmasında və təbliğində mühüm önəm daşıdığını söyləyib.

Tədbirdə mədəniyyət və turizm naziri Əbülfəs Qarayev, Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyev, “Azercell” şirkətinin prezidenti Vahid Mürsəliyev çıxış ediblər.

“Azərbaycanın sürətli inkişafını görmək və onunla bağlı jurnal nəşr etdirməkdən böyük zövq alırıq”, - deyən “The Business Year” nəşrinin baş redaktoru Leland Rays bildirib ki, Azərbaycanı digər ölkələrdən fərqləndirən əsas cəhətlərdən biri də burada keçirilən mötəbər beynəlxalq tədbirlərdir. Ölkəmizin ev sahibliyi etdiyi çoxlu sayda beynəlxalq tədbirlərin Azərbaycanın dünyadakı mövqeyini daha da gücləndirdiyini qeyd edən baş redaktor nəşr barədə ətraflı məlumat verib.

Sonra mükafatlandırma mərasimi olub.

Qeyd edilib ki, “The Business Year” nəşri müxtəlif sahələrdə böyük uğurlar əldə edən rəsmi şəxslər, kommersiya və qeyri-hökumət strukturları üçün dünyada “İlin birincisi” mükafatını təsis edib.

# Azərbaycana 11 milyard dollar qazandıracaq layihə

**"SOCAR Polymer" şirkətinin polipropilen və yüksək sıxlıqlı polietilen zavodları fəaliyyətləri dövründə 10-11 mlrd. ABŞ dolları həcmində gəlir gətirəcək. Bu barədə şirkətin saytında yerləşdirilən videoçarxda qeyd olunub.**

Məlumata görə, bu məbləğin 30%-ni şirkətin xalis mənfəəti təşkil edəcək.

Tikinti müddətində 1 200, zavodlar fəaliyyətə başlayandan sonra isə 300 nəfər işlə təmin oluncaq. "SOCAR Polymer" layihəsinin ümumi investisiya dəyəri 750 mln. dollar təşkil edir.

"SOCAR Polymer" şirkəti SOCAR ilə "Pasha Holding", "Azersun Holding" və "Gilan Holding" tərəfindən birgə yaradılmış müəssisədir. Şirkət Azərbaycanda kimya sənayesinin inkişafını sürətləndirmək üçün 2013-cü ilin iyulunda yaradılıb.

"SOCAR Polymer" layihəsi son 40 il ərzində öz növünə və miqyasına görə Azərbaycanın neft-kimya sənayesində həyata keçirilən ilk analoji layihədir.

Şirkətin polipropilen (PP) və yüksək sıxlıqlı polietilen (HDPE) qurğuları Sumqayıt Kimya Sənaye Parkının ərazisində tikilir. Sumqayıt Kimya Sənaye Parkı Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə yaradılıb. Park geniş vergi güzəştləri, tam infrastruktur dəstəyi və bütün icazələrin verilməsi məsələləri üzrə bir pəncərə yanaşması vasitəsilə Azərbaycanda innovasiyalı sənaye təşəbbüslərinə dəstək




göstərir. "SOCAR Polymer"in iki qurğusu hər il 180 min ton polipropilen və 120 min ton yüksək sıxlıqlı polietilen istehsal edəcək. Bu qurğular 2018-ci ildə istismara veriləcək:

Hazırda Azərbaycan aşağı sıxlıqlı polietilen ixrac edir, eyni zamanda, yüksək sıxlıqlı polietilen idxal edir. Bu layihənin əsas məqsədi idxalın əvəz olunması və ölkənin ixrac potensialının artırılmasıdır. İstehsal ediləcək məhsulların 30%-i yerli bazara, 70%-i isə Türkiyə və Avropa bazarlarına çıxarılacaq.

# "Bu il neftin qiyməti 60 dolları keçməyəcək"

Dünya bazarında neftin qiyməti bu il ərzində 60 dollar/barrel həddini keçməyəcək. Bunu Azərbaycanın energetika naziri Natiq Əliyev ANS-də yayımlanan "Hesabat" verilişində müsahibəsində bildirib.

"Dohada neft hasilatının müəyyən səviyyədə dondurulması ilə bağlı keçirilən görüşdə heç bir qərarın qəbul olunmamasına baxmayaraq, neftin qiyməti qalxmağa başladı və 49 dollar/barreli keçib. Hesab edirəm ki, qiymət ilin axırına kimi bir az artacaq. Amma bu il neftin qiyməti 60 dollar/barreli keçməyəcək. Çünki 60 dolar/barreli keçən kimi yenidən başqa proseslər baş verəcək və artıma imkan verməyəcək", - deyə N.Əliyev qeyd edib.



Nazir əlavə edib ki, bu il neftin qiymətinin kəskin sürətdə artımı gözlənilmir.

N.Əliyev 2017-ci ildə neftin qiymətinin daha 5-10 dollar bahalaşa biləcəyini hesab edir.

# "CDB Bank" Bərdədə filial açdı

Azərbaycanın bank sektorunda innovativ bank xidmətləri ilə tanınan “Caspian Development Bank (CDB)” ASC Bərdə şəhərində öz filialını açdı.



Cəbhə bölgəsinə yaxın ərazidə ölkə vətəndaşlarının bank xidmətlərinə olan tələbatını həyata keçirəcək CDB Bankın Bərdə filialı Bərdə şəhəri Üzeyir Hacıbəyov küçəsi · döngə 1, ev 1A ünvanında yerləşir.

Müasir bina ilə təmin olunmuş filial CDB Bankın ümumi konsepti əsasında dizayn edilib və burada müştərilərin rahatlığını təmin etmək məqsədilə lazımi şərait yaradılıb.

Peşəkar mütəxəssislərin xidmət göstərdiyi filialda vətəndaşlarımız müasir bank xidmətlərinin bütün növlərindən istifadə edə biləcəklər.

CDB Bankın Bərdə filialı müştərilərinə kassa hesablaşma əməliyyatları, kredit, əmanət, pul köçürmələri, plastik kartların sifarişi, kommunal ödənişlər, nağd valyuta ilə əməliyyatlar və digər xidmətləri əhatə edən geniş məhsul xətti təklif edir.

Filialın xidmətlərindən Bərdə şəhəri ilə yanaşı, qonşu rayonların sakinləri də faydalana biləcəklər.



# Vergilər naziri Yardımlıda vətəndaşları qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul edir, onların qarşılaşdığı problemlərin həllinə köməklik göstərirlər.

May ayının 20-də vergilər naziri Fazil Məmmədov Yardımlı şəhərində Yardımlı, Masallı, Lənkəran, Astara və Lerik rayonlarından olan vətəndaşları qəbul edib. Qəbulda Vergi Məcəlləsinə edilmiş son dəyişikliklər, vergilərin hesablanması, ödənilməsi, əmək müqavilələrinin bağlanması, vergi borcları, vergi nəzarəti tədbirləri sahəsində sahibkarların qarşılaşdıqları problemlər, əməkhaqqı fondundan ödənilən icbari ödənişlər, vergi ödəyicilərinə göstərilən xidmətlər, vergi orqanlarına işə qəbul, yerli (bələdiyyə) vergilərin toplanması prosesində rast gəlinən müxtəlif çətinliklər və digər məsələlərlə bağlı vətəndaşların müraciətlərinə baxılıb.

Qəbul zamanı qaldırılan problemlərin əksəriyyəti yerindəcə həll olunub, müraciətlərin bir qismi nəzarətə götürülüb, digərlərinin araşdırılması və lazımi tədbirlərin görülməsi ilə bağlı müvafiq tapşırıqlar verilib. Qəbula gələn vətəndaşlar onlar üçün yaradılmış bu imkandan razı qaldıqlarını bildiriblər.




# Vergilər Nazirliyində struktur və kadr dəyişiklikləri aparılıb

Vergilər Nazirliyi tərəfindən həyata keçirilən davamlı islahatlar nəticəsində vergi daxilolmaları üzrə proqnoz tapşırıqları vaxtında və artıqlaması ilə yerinə yetirilir, vergi qanunvericiliyi və inzibatçılığının təkmilləşdirilməsi, müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi, elektron xidmətlərin genişləndirilməsi istiqamətində məqsədyönlü addımlar atılır.

Vergi borclarının dövlət büdcəsinə alınması işinin təşkilinin daha da təkmilləşdirilməsi, cinayət xarakterli hüquqpozmaların qarşısının alınması sahələrində həyata keçirilən tədbirlərin səmərəliliyinin artırılması, eləcə də cinayət tərkibi yaradan borc materiallarının əvvəlcədən araşdırılması və təhlili nəticəsində vergi cinayətlərinin sayının azalmasına nail olmaq məqsədilə Vergilər Nazirliyinin Vergi cinayətlərinin təhlili və vergi borclarının alınması işinin təşkili Baş İdarəsi yaradılıb. Nazirliyin Hüquq Baş İdarəsinin rəisi vəzifəsində işləyən Zeynalabdin Məmmədzadə yeni baş idarənin rəisi vəzifəsinə keçirilib.

Vergi ödəyicilərinə xidmətin səviyyəsinin yüksəldilməsi, vergi məlumatlandırılması işinin və vergi qanunvericiliyinə əməl olunması səviyyəsinin artırılması, vergilərin könüllü ödənilməsi sisteminin inkişaf etdirilməsi sahəsində aparılan işlərin təkmilləşdirilməsi məqsədilə Vergilər Nazirliyinin Vergi ödəyicilərinə xidmət Baş İdarəsinin Çağrı Mərkəzi və Xidmət Mərkəzi ləğv edilərək, Vergilər Nazirliyi yanında Çağrı Mərkəzi Departamenti yaradılıb. Vergi ödəyicilərinə xidmət Baş İdarəsi rəisinin müavini vəzifəsində işləyən Məhəmməd Yunusov yeni departamentin rəisi vəzifəsinə keçirilib.

Vergilər Nazirliyinin Vergi borclarının alınması və ərazi vergi orqanları ilə iş üzrə Baş İdarəsinin adı dəyişdirilərək, Ərazi vergi orqanları ilə iş üzrə Baş İdarə adlandırılıb. Adı dəyişdirildikdən sonra da Baş İdarəyə, əvvəlki kimi, Elçin Bəylərov rəhbərlik edəcək.

Vergilər nazirinin digər əmrləri ilə buna qədər nazirliyin Aparatının rəhbəri işləyən Əli Həsənov Vergilər Nazirliyinin Tədris Mərkəzinin rəisi, İnsan resursları idarəsi rəisinin birinci müavini vəzifəsində işləmiş Ağasəməd Əfəndiyev isə Vergilər Nazirliyi Aparatının rəhbəri təyin olunub.




# Beynəlxalq Valyuta Fondunun nümayəndələri ilə görüş

Dünən Vergilər Nazirliyində Beynəlxalq Valyuta Fondunun (BVF) Azərbaycan üzrə missiyasının rəhbəri Məhəmməd Əl Qorçi və onu müşayiət edən nümayəndə heyəti ilə görüş keçirilib. Görüş zamanı BVF ilə mövcud əməkdaşlıq əlaqələrinin vəziyyəti və perspektivlər, vergi siyasəti sahəsində planlar, cari ilin dövlət büdcəsinin gəlirlər hissəsinin icrası və qarşıdakı illərdə müvafiq proqnoz göstəriciləri müzakirə olunub.

Vergilər nazirinin müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri İlkin Vəliyev son dövrlərdə Azərbaycanın vergi sistemində həyata keçirilən struktur və inzibatçılıq sahəsindəki islahatlar barədə qonaqlara ətraflı məlumat verib. Bildirilib ki, ölkə başçısı cənab İlham Əliyev yeni iqtisadi şəraitə keçidlə əlaqədar hökumət qarşısında qeyri-neft sektorunun daha böyük sürətlə inkişaf etdirilməsi, sahibkarlığın inkişafının stimullaşdırılması və investisiyaların təşviqini prioritet vəzifələr kimi qarşıya qoyub. Qeyd olunub ki, hökumətin proqnozlarına əsasən, bu ilin sonuna ölkə iqtisadiyyatında artım gözlənilir. Respublikada sahibkarlığın inkişaf etdirilməsi, biznesin stimullaşdırılması məqsədilə vergi sistemində və vergi inzibatçılığında islahatların aparılması prosesi davam etdiriləcək, vergidən yayınma hallarının qarşısının alınması üçün daha səmərəli nəzarət mexanizmlərinin tətbiqi, vergi ödəyicilərinə göstərilən elektron xidmətlərin spektrinin genişləndirilməsi həyata keçiriləcək. Nazir müavini həyata keçirilən tədbirlərin proqnozların icrasına müsbət təsir edəcəyinə əminliyini bildirib.

Azərbaycan iqtisadiyyatında müşahidə olunan iqtisadi dayanıqlığı qeyd edən missiya rəhbəri Məhəmməd Əl Qorçi hökumətin qeyri-neft gəlirlərinin artırılması və qeyri-neft sektorunun davamlı inkişafı sahəsində görülən işləri müsbət qiymətləndirib və vergi sistemində aparılan islahatların əhəmiyyətini qeyd edib. Bildirilib ki, müşahidə olunan iqtisadi çətinliklər dövründə Azərbaycanın büdcə-vergi siyasətində nümayiş etdirdiyi nəticələr qənaətbəxşdir.

Sonra tərəflər cari ildə vergi qanunvericiliyində edilmiş dəyişikliklərin büdcə gəlirlərinə təsiri, qeyri-neft-qaz sektorundan vergi daxilolmalarının artırılması istiqamətində görülən işləri, ayrı-ayrı sahələrdən vergi daxilolmalarının vəziyyətini müzakirə ediblər. Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.



# Paytaxtda yaşayış fondunun yenilənməsi

## *Qəza vəziyyətində olan binalar söküləcək*



*(əvvəli ötən sayımızda)*

Bakıda köhnəlmiş yaşayış binalarının sökülməsi proqramı 2030-cu ilə qədər tamamilə başa çatdırılmalıdır.

### Azərbaycanda sosial yaşayış binaları

Cüzi büdcəsi olan ailələr üçün nəzərdə tutulan sosial evlərin tikintisi ilk dəfə ABŞ-da meydana gəldi. İkinci dünya müharibəsi sona çatırdı, əsgərlər evə dönür, ailə qurur və valideynlərinin evində yaşamaq məcburiyyətində qalırdılar. Hərbi sənaye ölkənin bütün xammal ehtiyatlarını, xərclərini və tikinti materiallarını, texnika və mütəxəssislərini özünə çəkirdi. Nəticədə, yeni tikinti, demək olar ki, dayanmışdı, mövcud binalarda qiymətlər isə dəfələrlə yüksəlmişdi. Ucuz kütləvi yaşayış evlərinə olan tələbat olduqca böyük idi. Hökumət şəhərətrafı qəsəbələrin tikintisini subsidiyalaşdırmağa başladı, bütün təşəbbüsün güclü qanuvericilik dəstəyini təmin etdi (hərbi qulluqçuların hüquqları haqqında qanun qəbul edildi).

Maya dəyərinin daha da aşağı salınması üçün şirkətlər bütün zəruri olanları istisnasız olaraq istehsalçılardan alırdılar. Düşünülmüş tikinti proqramının nəticələri möhtəşəm oldu: hər gün 30-40 fərdi evin açarları təhvil verilirdi.

Lakin yenə də müharibədən sonrakı illərdə ilk sosial yaşayış evlərinin qiymətləri ucuz deyildi. Müharibədən yeni qayıtmış gənc insanlar bu pulları hardan əldə edə bilərdi ki? ABŞ-da amerikalılara ev almağa kömək edəcək xüsusi qanun qəbul edildi. Banklar əvvəllər buna heç ümid etməyən insanlara borclar verməyə başladı. Əvvəllər bank kreditinə görə 18-20% ödəmək lazım gəlirdisə, sonralar faiz dərəcələri aşağı qəbul edildi. Alınacaq evə görə ilkin ödənişin həcmi azaldıldı. Götürülən kreditin 20-30 ilə qədər uzadılması mümkün oldu. Və nəhayət, cüzi büdcəsi olan insanlar da şəxsi ev əldə edə bildilər.

Bu gün xaricdə yaşayış evi məsələsinin həll edilməsi üçün azbüdcəli yaşayış evlərinin tikilməsi və onların müəyyən şərtlərlə satın alınmasının müxtəlif modellərindən istifadə edilir. Dünya təcrübəsində "sosial yaşayış evi" termini mülkiyyətçiləri və ya idarəçiləri təşkilatlar (dövlət və bələdiyyə müəssisələri, qeyri-kommersiya təşkilatları və ya onların kombinasiyaları) olan, bir qayda olaraq, yaşayış evlərinin əhalinin bütün təbəqələri üçün əlçatan olmasının yüksəldilməsi ilə əlaqədar olan, qeyri-kommersiya məqsədləri güdən, daşınmaz əmlakın çoxsaylı icarə formalarını birləşdirir. Sosial yaşayış evləri üzrində mülkiyyət hüququna dövlət və ya bələdiyyələr malik olur. Bəzi hallarda həmin yaşayış sahələri ehtiyacı olanlara icarəyə verilir, digər hallarda onlar güzəştli şərtlərlə uzunmüddətli kreditlər hesabına dövlətdən satın alınır. Göstərilən yaşayış sahələri üç kateqoriyaya aid olan vətəndaşlara təqdim edilir:

-yaşayış şəraitinin təcili olaraq yaxşılaşdırılması üçün qeydiyyatda duran şəxslərə;

-aztəminatlı kimi tanınanlara və mənzillərin əldə edilməsi üçün dəstəyə ehtiyacı olanlara.

Ekspetlər belə bir fikirdə yekdildirlər ki, Avropanın bir çox ölkələrində olduğu kimi, belə yaşayış evlərinin mülkiyyət hüququ olmadan sahiblənməklə icarəyə verilməsi Azərbaycanda uğur qazanmayacaq, çünki bizim vətəndaşlar satmaq və varislərinə ötürmək hüququ ilə olan mənzillərə sahib olmağa üstünlük verirlər. Buna görə də cənab Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, bizim reallığa uyğun gələn sxemin seçilməsi (uzunmüddətli kredit hesabına əldə edilmə) daha optimaldır.

Azərbaycanda sosial yaşayış evi institutunun yaradılması ideyasını cənab Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2016-cı ilin birinci rübündə "Sosial-iqtisadi inkişafın nəticələri və qarşıda duran vəzifələr"inə həsr edilmiş iclasında səsləndirdi.

Həmin məsələni gündəliyə gətirmək və müvafiq strukturlara öz göstərişlərini verməklə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bir daha sübut etdi ki, sosial siyasət Azərbaycan hökumətinin daxili siyasətində prioritet istiqamətdir və belə olmaqda da davam edir. Ölkə başçısı özünün son çıxışında qeyd etdi ki, sosial yaşayış evləri təkcə Bakıda deyil, respublikanın digər şəhər və rayonlarında da tikiləcəkdir.

Hər il Azərbaycanda 85-86 min cütlük nikah bağlayır. Əksər gənc ailələrin yaşayış sahəsinə ehtiyacı vardır. Onlardan hissəsi yaşayış sahəsi problemini ipoteka kreditləri hesabına həll etməyə səy göstərir, şəhid ailələri və məcburi köçkünlər isə dövlət hesabına yaşayış evləri ilə təmin edilir. Statistikaya görə, son 10 ildə 4 mindən çox vətəndaş sosial ipoteka vasitəsi ilə mənzil əldə etmişdir.

Digər kateqoriyalara aid edilən insanlar isə yaşayış sahəsi ilə təmin edilmədə böyük çətinliklərlə üzləşirlər. Həm də ki, yaxın keçmişdən ipotekaya görə ilkin ödəniş məbləği iki dəfə artırılmışdır. Buna görə də sosial yaşayış evi aztəminatlı əhali qrupları üçün, daha dəqiq desək, heç bir güzəştə malik olmayan, aşağı və orta gəlirə malik insanlar üçün nəzərdə tutulmuşdur.

*(davamı var)*

*İradə Bəkirzadə*

# İNNOVASİYA

*İqtisadiyyatımızın innovasiya iqtisadiyyatına istiqamətləndiyi bir şəraitdə əhalinin innovasiya fəallığının yüksəldilməsi ən vacib problemlərdən biridir. Etiraf edək ki, xalq təsərrüfatının əksər sahələrində çalışan işçilərin innovasiya fəallığı aşağıdır.*

*İnnovasiya fəallığının yüksəldilməsi üzrə ölkəmizdə tədqiqatların aparılmamasını və milli dilimizdə yazılı materialların qıtlığını nəzərə alaraq professor Albert Tağıyevin bu yaxınlarda işıq üzü görmüş “İnnovasiya” kitabından (9-cu broşüra) silsilə məqalələri oxucuların nəzərinə çatdırırıq.*



A.H.TAĞIYEV,
Sumqayıt Dövlət Universitetinin “Menecment” kafedrasının müdiri, professor



*(əvvəli ötən saylarımızda)*

İnnovasiya prosesi müxtəlif resursların istehsal fəaliyyətinə cəlb edilməsilə bağlıdır. Əsas resurslar yeni məhsul istehsalının geniş miqyasda mənimsənilməsi ilə əlaqədar olan tədqiqatlar və araşdırmalar aparılmasına, layihə-texnoloji və başqa işlərin yerinə yetirilməsinə sərf olunur. Bütövlükdə, innovasiya fəaliyyəti sisteminə elm, texnologiya, innovasiya və təhsil kimi tərkib hissələri daxildir.

Bu komponentlərdən hər hansı birinin olmaması innovasiya fəaliyyəti sisteminin bütövlüyünün pozulmasına gətirib çıxarır. Eyni qayda ilə, bütöv sistemin komponentlərindən birinin inkişafına lazımınca diqqət yetirilməməsi nəticəsində məhsulun rəqabətlilik qabiliyyəti aşağı düşəcəkdir, çünki bu halda məhsulun elm tutumluluğu azalır, yaxud təhsil sahəsinə lazımınca diqqət yetirilməməsi təkcə yeni məhsullar yaradan təşkilatlarda və elmi müəssisələrdə deyil, eyni zamanda, iqtisadiyyat sahələrində də kadr problemlərinin kəskinləşməsinə gətirib çıxarır.

Müasir dövr üçün elm maşınlı istehsalın inkişafı şəraitində - təqribən XVIII əsrin axırlarından başlayan sənaye çevrilişi dövründə formalaşmışdır. Bu mərhələdə təcrübə və ya eksperiment nəzəri biliyin həqiqiliyinin müəyyən edilməsi yollarından biri idi. Bu halda təcrübə yeni anlayışlar yaratmır, yalnız onların doğruluğunu təsdiq edirdi. Elmi bilik maddi istehsalın nəzəri əsasına çevrilmişdi. Bununla əlaqədar, elm cəmiyyətin bilavasitə məhsuldar qüvvəsinə çevrilmişdir. Elmin texniki təchizat səviyyəsi də artmışdır, çünki tədqiqatların aparılması üçün zəruri olan, yüksək cərəyanla işləyən müasir cihazlar və mürəkkəb aparatlar olmasa, elmin inkişafı mümkün deyil.

Başqa bir misal. Nanotexnologiyanı mənimsəmək üçün yüksək temperaturların (mənfi və müsbət) alınması və belə mühitdə maddələrin molekulyar quruluşuna nüfuz edə biləcək ölçü cihazlarının olması zəruridir. İlk dəfə belə cihazlar 1982-ci ildə ABŞ-da hazırlanmışdır. Alimlərin və mühəndis-texniki işçilərin intellektual töhfəsi istehsal edilən məhsulun elmtutumluluğunu və onun rəqabətlilik qabiliyyətini tədricən artırır. Elmi biliklər maddi istehsalın nəzəri əsasına çevrilmişdir. Odur ki, inkişaf etmiş ölkələrin hamısında fundamental nəzəri araşdırmalara (FNA) və axtarış xarakterli elmi tədqiqat işlərinə diqqət artırılır. Məhz, belə işlər innovasiya fəaliyyəti üçün bilik potensialını yaradır.

Bir qayda olaraq, bütün FNA elmi problemin qoyuluşundan başlanır. Bu problemi həll etmək üçün zəruri olan əlavə məlumatlar dəqiq bilik formasında, faktlar şəklində seçilir. Alim qarşısına qoyduğu məqsədi əsas götürərək faktları seçir və təhlil edir. Faktlar həm elmi hipotez irəli sürmək, həm də onu əsaslandırmaq üçün zəruridir. Bir və ya bir qrup hipotezin irəli sürülməsi idrakın yeni nəticələrə doğru hərəkəti yoludur. Alim çoxsaylı hipotezlər arasında ən çox ehtimal ediləni seçir və onu hərtərəfli tədqiq edir. Əgər hipotez həqiqi biliyə müvafiqdirsə və onun formal-məntiqi ziddiyətləri yoxdursa, o, nəzəri cəhətdən işlənilmiş biliyə, gerçəkliyin nəzəri təsvir vasitəsinə çevrilir, bəzi hallarda isə yeni ixtira və kəşflərə gətirib çıxarır.

Alim FNA-nın nəticələrinə öz məqsədləri mövqeyindən yanaşdığı üçün yeni elmi bilikdən cəmiyyətin tələbatının təmin edilməsi üzrə praktiki baxımdan istifadə etməyə çalışır. Axtarış xarakterli elmi-tədqiqat işi (ETİ) aparılarkən problemin qoyuluşu nəzəri biliyin maddiləşdirilməsi haqqında elmi-texniki ideya irəli sürülməsilə eyniləşdirilir. Axtarış xarakterli ETİ-lərin mühüm nəticəsi nəzəri biliklərin və kəşflərin praktikada istifadə edilməsi, ictimai istehsalda elmi-texniki potensialın artırılması metodlarının köməyilə elmi cəhətdən əsaslandırılmasıdır.

FNA və axtarış xarakterli ETİ-nin aparılmasının nəticələrinə əsasən, elmi biliklərin potensialı öz xüsusiyyətlərinə görə mühüm intellektual məhsuldur.

Müasir dövrdə FNA-ların və axtarış xarakterli ETİ-nin nəticələri əsasında alınan intellektual məhsullar olmadan yüksək elmtutumlu və yeniliyi ilə seçilən rəqabət qabiliyyətli məhsulların yaradılması praktiki olaraq qeyri-mümkündür. Sənaye cəhətdən inkişaf etmiş bütün ölkələrdə ictimai istehsalın son məhsulunun intellektual tərkib hissəsinin artırılmasına yönəldilmiş innovasiya fəaliyyətinin inkişafına böyük əhəmiyyət verilir. Ona görə də tətbiqi ETİ və təcrübi-konstruktor işlərinin və eləcə də layihə-texnoloji işlərin (LTİ) yerinə yetirilməsi elmi biliklərdən daha dolğun istifadə edilməsinə əsaslanır, bu isə yeni məhsulun yüksək rəqabətlilik qabiliyyətini təmin edir.

Bütövlükdə, innovasiya fəaliyyəti sistemində tətbiqi araşdırmalar və tədqiqatlar axtarış xarakterli ETİ-dən sonra aparılır. Mahiyyət etibarilə, ETİ texniki-konstruktor işləmələrindən (TKİ-dən) əvvəl və ya onunla paralel, yaxud ondan sonra aparıla bilər, eləcə də bu işlərin müstəqil istiqamətləri ola bilər (məsələn, istehsalın təşkili, idarəetmə sistemlərinin layihələndirilməsi və s. sahələrdə).

*(davamı var)*

# Dubaya pomidor ixrac ediləcək

Azərbaycanın “Buta Group” şirkətinin bu ildən etibarən ərəb ölkəsinə pomidor ixracına başladığı barədə məlumat vermişdik.

“Buta Group” şirkəti iki müəssisəni – “Aztomato” və “İsmayıllı Tərəvəzləri” şirkətlərini özündə birləşdirir. “Aztomato” Zirədəki istixana kompleksində pomidor yetişdirir.

Şirkətin direktoru Elvin Əkbərov bildirdi ki, bu ildən pomidor Birləşmiş Ərəb Əmirliklərinə ixrac olunur və Avropa ölkələri ilə də danışıqlar aparılır:



“Biz pomidoru Birləşmiş Ərəb Əmirliklərinə ixrac etməyə başlamışıq. Bir aydır müqavilə bağlamışıq, ilk partiyada nümunə olaraq 500 kq göndərilib. Artıq ikinci partiyanı da göndərmişik və pomidorumuzu çox bəyəniblər. Bildiyimə görə, ilk pomidorun alıcısı “Fly Dubai” şirkəti olub. Dubayın havayolu şirkəti qidalarda Azərbaycan pomidorundan istifadə edir.”

Elvin Əkbərov qeyd etdi ki, Zirədə 5 hektar sahədə pomidor əkilir və istixanaların illik istehsal gücü 1300 tondur. İyun ayında istixanaların sahəsi 2 hektar artırılacaq və illik istehsal gücümüz 2000 tona çatacaqdır. Pomidorlar hollandiya texnologiyası ilə, müasir şüşədən olan istixanalarda yetişdirilir.

Şirkət 5 ildir Rusiya və digər MDB ölkələrinə pomidor satır.

Elvin Əkbərov bunu da bildirdi ki, “Buta Group”un “İsmayıllı Tərəvəzləri” şirkəti İsmayıllı rayonunda 200 hektar sahədə tərəvəz məhsulları kartof, soğan, kələm, yerkökü və s. yetişdirməyə başlayıb.

*Seymur*

# “AtaBank”-ın Visa Gold vəVisa Platinum kart sahiblərinə xoş xəbər!

2016-cı ilin aprel ayının 30-dan etibarən bu ilin 31 iyul tarixinə qədər keçirilən “Arzularınızın səyahətini qazanın” stimullaşdırıcı lotereya “AtaBank” ASC-nin müştərilərinə dəyərli hədiyyələr qazandıracaq.

Lotereyaya qoşulmaq isə çox sadədir.




Bunun üçün Siz “AtaBank” Visa Gold və ya Visa Platinum ödəniş kartları ilə Azərbaycan Respublikası ərazisində və ya ondan kənarda yerləşən istənilən ticari xidmət müəssisəsində, həmçinin İnternet şəbəkəsində məhsullar və ya xidmətlər üzrə 50 AZN məbləğindən başlayan nağdsız əməliyyat aparmaqla lotereyanın iştirakçısına çevrilirsiniz. POS-terminal vasitəsi ilə etdiyinizin ödənişin qəbzini özünüzdə saxlayır və bu ödənişin detallarını www.visa.com.az saytında xüsusi xanada qeyd edirsiniz.

Qeyd edək ki, lotereyada hər biri 6350 AZN həcmində 6 səyahət paketindən başqa, “Sabina Perfumery&Cosmetics” mağazasından hər biri 50 AZN olan 120 ədəd kupon oynanılacaq.

Lotereyanın şərtləri haqqında https://www.visa-promotions.com/promotions/premiumaz/register.jsp saytından daha ətraflı tanış ola bilərsiniz.

“AtaBank”ASC bütün iştirakçılara uğurlar arzu edir!

# “Excelsior Hotel Baku” oteli açıq hovuzun yay mövsümünü açıq elan edir

20 may 2016-cı il tarixindən etibarən “Excelsior Hotel Baku” oteli açıq hovuzun yay mövsümünü açıq elan edəcək. İsti yay günlərində uzağa gedərək dincəlmək imkanı olmayanlar üçün gözəl imkan olacaqdır. Açıq hovuzun kənarında böyüklərlə yanaşı uşaqların da doyunca istirahət etməyi üçün hər cür şərait yaradılıb. Açıq hovuzun bir nəfər üçün giriş qiyməti həftə içi günlər 20 AZN və həftə sonu 25 AZN təşkil edir. 6 yaşa qədər uşaqlar pulsuzdur. “Excelsior Hotel Baku” öz gözəlliyi, yüksək səviyyəli xidməti, peşəkar personalı və eyni zamanda universal imkanları ilə fərqlənir. Otelin imkanlarından istifadə etməklə burada gözəl istirahət etmək olar. Oteldə istirahət edən qonaqlar müasir restoranlarda dünya, Avropa və Milli mətbəxin yeməklərindən dada bilərlər.

“Excelsior Hotel Baku”oteli 2005-ci ilin avqust ayından fəaliyyət göstərir.



Oteldə 1 "İmperial" kral otaği, 2 "Royal" suit otaq, 4 "Crown" suit otaq, 45 "Heritage" lüks otaq ve 9 "Duke" standard otaq, həmçinin konfrans zalları, biznes mərkəzi, restoran və barlar və şəhərin ən gözəl və böyük Spa və sağlamlıq mərkəzi var.




